# Cəbhədə olmağıyla qürur

**Tariximizin ən şərəfli səhifəsi olan 44 günlük haqq savaşımızda qanı bahasına əsir Qarabağımızı azad edib bizə zəfər sevincini yaşadan minlərlə Vətən qeyrətli oğlumuz oldu. Cəlilabadın Üçtəpə kəndində dünyaya göz açan Elməddin Vəlişov da onlardan birdir.**

İndi adı hər bir azərbaycanlının dilində qazanılan parlaq qələbəmizin mərdlik, qəhrəmanlıq simvolu kimi səslənən Elməddin şəhid olanda ömrünün 24-cü ilini yaşayırdı. Şücaəti gələcək nəsillər üçün örnək olacaq. Layiq görüldüyü "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azad olunmasına görə və "Cəsur döyüşçü" medalları sübut edir ki, Vətən sevgisi əzəldən Elməddinin ruhuna, canını, qanına hopub.



# Torpağı Vətən, Vətəni bütöv edənlər

## Vətənpərvərliyin və igidliyin Xudayar nümunəsi

**44 günlük II Qarabağ müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun mərd oğulları xalqımıza zəfər sevinci bəxş etdi. Bu Zəfər tarixi qələbəmizin müjdəsi olaraq musiqiçilərin də yaradıcılığının ilham mənbəyi oldu. Zəfər sevgisindən qələbə ruhlu əsərlər yarandı. Əslində, musiqi hər zaman insanlara ruh verib, onların hiss və duyğularını ifadə edib. Amma qələbəmizin sevinci daha əzəmətli olduğundan onun musiqi müjdələri də müxtəlif janrda qələmə alınan əsərlərdə öz əksini tapdı.**

Qarşımızda bir kitab var. "Nəğmə də bir silahdır" adlı bu kitabın müəllifi sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar mədəniyyət işçisi Səadət Şirinovadır. Kitabda göstərilir ki, musiqi əsrarəngiz gözəlliyi təbliğ edən, sənət incisi olmaqla bərabər həm də insanların hiss və duyğularının, düşüncələrinin, vətənpərvərlik və mübarizə əzminin və bu kimi bədii dəyərlərin təcəssümüdür.

Kitabda ayrı-ayrı musiqiçi şəhidlərin həyat yolundan ətraflı bəhs olunur. Onlar öz şəhidliyi ilə tarixin qəhrəmanlıq səhifəsini yazaraq xalqa əmin-amanlıq gətirirlər. "Qəhrəmanın ölümü xalqa azadlıq gətirdi". Bu fikri unudulmaz şairimiz Bəxtiyar Vahabzadə misraları ilə belə nəzmə çəkib:

*İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyri-şəriylə,*
*Torpağın bağrına cəsədləriylə,*
*Azadlıq toxumu əkdi şəhidlər.*

"Nəğmə də bir silahdır" kitabında vətən müharibəsi şəhidi, ağır döyüşlərdə oxuduğu mahnılarla Azərbaycan əsgərlərində coşqu, qələbəyə inam yaradıb, ən çətin anlarda düşmənə ağır zərbələr vurmağı bacarıb, sinəsini düşmən gülləsinə sipər edən Xudayar Yusifzadənin ömür yoluna geniş yer ayrılıb.

Xudayarın valideynləri əslən Qərbi Azərbaycanın Dərələyəz mahalının Çermuk şəhərindən olub. Onların ata-babaları min illər boyu Azərbaycan türklərinə məxsus dağların qoynunda yaşamış, 1947-ci ildə erməni vandalları tərəfindən deportasiyaya məruz qalmış, məcburən Dərələyəzi tərk edib, Azərbaycanın Bərdə rayonunda məskunlaşmışdır.

Xudayar Yusifzadə 1998-ci il iyulun 15-də Bərdə şəhərində dünyaya göz açmışdır. Atası Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası Radə Qurbanova isə evdar qadın olub. Ailədə dörd uşaq olub - 3 qardaş və 1 bacı. Onun doğumundan 24 gün sonra atası vəfat etmişdir.

Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil almış, 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi xidmətdə olmuşdur. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidməti başa vurub. Kursdan keçdikdən sonra "kiçik gizir" hərbi rütbəsi almışdır.







Döyüşlərdən iki gün öncə Əliağa Vahidin sözlərinə yazılmış "Vətən yaxşıdır" mahnısını oxuyarkən döyüş yoldaşları onu videoya almışdır. Həmin video sosial şəbəkələrdə trendə çevrilmişdir.

2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra Xudayar yenidən Bərdə Rayon Səfərbərlik və Hərbi Xidmət üzrə Şöbəsinə müraciət edib. Xudayar Yusifzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edib, daha sonra isə Murovdağın, Füzulinin, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə vuruşub, heç vaxt ölümündən qorxmayıb.

Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmanlıqla şəhid olub. Son nəfəsində Qərbi Azərbaycandakı ata-baba yurd yerlərini, gözləri cəbhə yollarına dikilmiş anasını xatırlayıb. Son mənzili Bərdə şəhərindəki Şəhidlər xiyabanı olub.

Xudayar Yusifzadənin adı çəkilərkən onun qəhrəmanlığı ilə bərabər məlahətli səsi və oxuduğu "Vətən yaxşıdır" mahnısı yada düşür.

Qeyd etmək lazımdır ki, "Nəğmə də bir silahdır" kitabında məşhur mahnının musiqi müəllifi ustad sənətkarımız Əlibaba Məmmədov da mahnının "Xudayar təsnifi" adlanmasına münasibət bildirərək deyirdi ki, mən o şəhid balamızın ruhu qarşısında baş əyərəm ki, mənim mahnıma ikinci həyat verib.

Musiqiçi ailəsində dünyaya göz açan Xudayarın ruhu musiqi ilə yoğrulmuşdu. Amma təəssüf ki, o da musiqi təhsili ala bilmədi. Amansız müharibə buna mane oldu, arzusu baş tutmadı. Xudayarın səsi və nəğməsi isə onu şəhid musiqiçi kimi əbədiləşdirdi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda rəşadətlə döyüş yolu keçdiyinə görə Xudayar Yusifzadə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" medalı, "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

2020-ci ildə heykəltaraş Lalə Əliyeva tərəfindən, 2021-ci ildə isə heykəltaraş Teymur Qurbanov tərəfindən büstü hazırlanmışdır.

Xudayar Yusifzadənin döyüş yolu əsl qəhrəmanlıq dastanıdır. Bu dastan musiqi ilə başlayıb elə musiqi ilə də rövnəqləndi. Xudayar gənc ömründə müdrik qəhrəmana xas olan əməllər nümayiş etdirdi. O, 22 bahar yaşasa da, bir qartal ömrü yaşadı. Əməlləri ilə adını Qəhrəmanlıq Salnaməmizə həkk etdirdi. Xudayarın adı, əməlləri daim zirvədə olacaq...

**Qədir ASLAN,**
**"Respublika".**

